# MƏHKƏMƏYƏ ŞİKAYƏT NECƏ VERİLİR

## Hansı məhkəməyə müraciət etmək lazımdır

İlk növbədə hansı məhkəməyə müraciət etməyin tələb olunduğunu müəyyənləşdirmək lazımdır.

Mübahisənin ümumi məhkəməyə və yaxud iqtisad məhkəməsinə aid olması, mübahisə predmetinin və hüquq münasibətlərinin xarakteri nəzərə alınmaqla, Azərbaycan Respublikası Mülki-prosessual Məcəlləsinin 3-cü fəslinin müddəalarına uyğun olaraq müəyyən edilir.

Göstərilən fəslin müddəalarına əsasən mülki məhkəmə icraatı qaydasında mülki, ailə, əmək, mənzil, torpaq münasibətləri, təbii ehtiyatlardan istifadə olunması və ya ətraf mühitin qorunması, vergi və digər münasibətlərdən əmələ gələn mübahisələr üzrə tərəflərdən heç olmasa biri fiziki şəxsdirsə və onun fərdi sahibkar statusu yoxdursa və ya belə statusu olsa da, mübahisə onun sahibkarlıq fəaliyyətini həyata keçirməsi ilə əlaqədar yaranmamışsa, həmin mübahisələr üzrə işlərə ümumi məhkəmələr baxır.

İdarə və ya digər mənsubiyyətindən və tabeliyindən asılı olmayaraq, hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən və qanunla müəyyən edilmiş qaydada fərdi sahibkar statusu əldə edən fiziki şəxslər arasında, yaxud vergi orqanının qaldırdığı iddialar ilə bağlı vergi orqanı ilə vergi ödəyicisi arasında iqtisadi mübahisələr üzrə işlər mülki icraat qaydasında inzibati- iqtisadi məhkəməyə aiddir.

İnzibati-iqtisadi məhkəmədə baxılan iqtisadi mübahisələrə yuxarıda qeyd olunan subyektlər arasındakı aşağıdakı mübahisələr aiddir:

1. qanunla nəzərdə tutulan müqavilələr üzrə ixtilaflara dair və yaxud tərəflərin razılığı ilə ixtilafın inzibati-iqtisadi məhkəmənin həllinə verilməsi barədə mübahisələr;
2. müqavilələrin dəyişdirilməsi və ya ləğv olunması barədə mübahisələr;
3. müəssisənin təsis sənədlərinin etibarsız hesab edilməsi barədə mübahisələr;
4. hüquqi və fiziki şəxslərin ödəmə qabiliyyəti olmayan hesab edilməsi barədə mübahisələr;
5. vergi ödəmələri barədə, habelə hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması, yaxud hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinin təmin olunması məqsədi ilə vergi ödəyicisinin siyahıya alınmış əmlakının ixtisaslaşdırılmış açıq hərraclarda satılması barədə mübahisələr.

İnzibati-iqtisadi məhkəmələr qanunla onların səlahiyyətlərinə aid edilən digər işlərə də baxa bilər.

Əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin iştirak etdikləri işlərə, əgər dövlətlərarası sazişlərlə, beynəlxalq müqavilələrlə və ya tərəflərin sazişi ilə digər hallar nəzərdə tutulmayıbsa, məhkəmələr baxırlar.

Beləliklə, müəssisələr və fərdi sahibkarlar öz mübahisələrini iqtisad məhkəməsində həll etməlidirlər. Dövlət orqanları ilə yaranmış mübahisələri də bu məhkəmədə həll etmək lazımdır. Məsələn, lisenziya verilməsindən imtinaya qarşı etirazı, qeyri qanuni tutulmuş vergilərin, faizlərin geri alınmasını, əsassız olaraq tətbiq edilmiş maliyyə sanksiyalarının ləğv edilməsini və s. bu kimi mübahisələri inzibati-iqtisadi məhkəmələr həll edir. Dövlət orqanlarının qeyri-qanuni əmrlərini, təlimatlarını, qərarlarını və aktlarını, o cümlədən, inzibati məsuliyyətə cəlb edilmə





haqqında qərarları ləğv etmək üçün də inzibati-iqtisadi məhkəməyə müraciət edilməlidir.

### Məhkəməyə necə müraciət edilməlidir

İddiaçı öz tələbini iddia ərizəsində ifadə etməlidir. İddia ərizəsi məhkəməyə yazılı şəkildə verilir. O, iddiaçı və ya onun bunu imza etməyə səlahiyyəti olan nümayəndəsi tərəfindən imzalanır.

Ərizədə aşağıdakılar göstərilməlidir:

- Ərizənin verildiyi məhkəmənin adı;
- işdə iştirak edən şəxslərin adları, onların poçt ünvanları;
- iddiaçının və ya ərizəçinin tələbi, onların öz tələblərini əsaslandırdıqları hallar, qanunlara və digər normativ hüquqi aktlara əsaslanan tələbin əsaslandırıldığı hüquqi tövsif, iddia bir neçə cavabdehə verildikdə isə onların hər birinə qarşı yönələn tələb;
- müqavilə ilə və ya həmin kateqoriya işlər üçün qanunla bu, nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər /pretenziya/ qaydada nizama salınmasına riayət edilməsinə dair məlumat;
- ərizəyə əlavə edilən sənədlərin siyahısı.

İddiaçı bir-biri ilə bağlı olan bir neçə tələbi bir iddia ərizəsində birləşdirməyə haqlıdır.

Ərizədə mübahisənin düzgün həll edilməsi üçün zəruri olan digər məlumatlar, həmçinin, iddiaçının vəsatətləri də göstərilir.

İddia ərizəsinə aşağıdakı sənədlər əlavə edilir:

- cavabdehlərin və üçüncü şəxslərin sayına görə iddia ərizəsinin surətləri;
- dövlət rüsümunun ödənilməsi haqqında sənəd;
- nümayəndənin səlahiyyətlərini təsdiq edən etibarnamə və ya digər sənəd;
- iqtisadi mübahisələr üzrə işdə iştirak edən digər şəxslər tərəfindən iddia ərizəsinin surətinin və ona əlavə edilmiş sənədlərin alınması haqqında sənəd;
- iddiaçının öz tələblərini əsaslandırdığı hallara dair sənədlər, əgər bu sənədlərin surətləri cavabdehlər və üçüncü şəxslərdə yoxdursa, onlara verilmək üçün bu sənədlərin surətləri;
- onun mübahisələndirildiyi halda, normativ aktın mətni;
- müqavilə ilə və ya həmin kateqoriya mübahisələr üçün qanunda bu nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər və ya pretenziya qaydasında nizama salınmasına riayət edilməsini təsdiq edən sənəd.

### İddia ərizəsində nələr göstərilməlidir

İddia ərizəsi sərbəst formada tərtib olunur. Əvvəlcə xronoloji qaydada mübahisənin bütün vacib hallarını ifadə etmək lazımdır. Çalışmaq lazımdır ki, iddia ərizəsində ikinci dərəcəli informasiyaya çox yer verilməsin. Qanunvericiliyin pozulması halların və Sizin qanuni maraq və mənafelərinizə toxunan hallara diqqəti cəlb etməyə çalışın. Bu halları şərh edərkən qanunvericilik aktlarına istinad etmədi unutmayın.

Sizin hansı hüquq və maraqlarınızın pozulduğunu dəqiq göstərin. Məsələn, dövlət orqanları ilə mübahisələrdə göstərmək olar ki, onların qeyri-qanuni hərəkətləri (hərəkəsizliyi) nəticəsində Siz sərfəli bir müqavilədən imtina etməli olmusunuz, tərəf-müqabilləriniz qarşısında öhdəliklərinizi yerinə yetirə bilməmisiniz, lazım olduğundan artıq vergi ödəmisiniz və s. Bu zaman Sizə bu və ya digər hüquqlar verən qanunvericilik normalarına istinad edin (məsələn, vergi ödəyicilərinin hüquqları Vergi Məcəlləsinin 15-ci maddəsində verilmişdir). Vergi mübahisələri zamanı

Vergi Məcəlləsinin 3.11-ci maddəsinə daha çox istinad edilir. Bu maddə vergi qanunvericiliyinin bütün ziddiyyətlərini və aydın olmayan məqamlarını vergi ödəyicisinin xeyrinə şərh etməyi tələb edir. Bu zaman Azərbaycan Respublikası Ali Məhkəməsinin 27 noyabr 2003-cü il tarixli 5 saylı qərarına da istinad etmək olar. Bu qərarın 4-cü maddəsində məhkəmələrə izah olunur ki, «Vergi Məcəlləsinin 3.11-ci maddəsinə əsasən vergilərlə bağlı işlərə baxılarkən iş üzrə aydın olmayan, vergi orqanı tərəfindən aydınlaşdırılması mümkün olmayan məqamlar, vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan halları, habelə vergi qanunvericiliyinin pozulmasında vergi ödəyicisinin təqsirinin olmasında aradan qaldırılmaz şübhələr olduqda onlar vergi ödəyicisinin xeyrinə şərh olunmalıdır.» *(bax. «Mühasibat uçotu» № 6(91).*

Tərəf-müqabilinizlə mübahisədə onun müqavilənin hansı şərtlərini pozduğunu və bunun nəticəsində Sizə hansı ziyanın dəydiyini dəqiq göstərin. Həmçinin, borcludan öhdəliklərini yerinə yetirməyə tələb etməyə Sizə haqq verən hüquq normalarına istinad edin. Məsələn, iqtisadi mübahisələr zamanı Mülki Məcəllənin 449-cu maddəsinə tez-tez istinad edilir. Bu maddəyə əsasən özgəsinin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməklə və ya toplamaqla ondan faydalanmağa görə həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir.

Dövlət orqanları tərəfindən aparılmış yoxlama (hansının ki, nəticələrini məhkəmədə mübahisə edirsiniz) zamanı yoxlayıcılar tərəfindən qanun pozuntusuna yol verilmişsə, hansı qanunun hansı normasının pozulduğunu dəqiq göstərmək lazımdır. Nə qədər belə pozuntulara çox yol verilsə, bir o qədər Sizin üçün yaxşıdır. Bu halda Azərbaycan Respublikasının Konstitusiyasının 63-cü maddəsinin IV hissəsinə istinad etmək olar. Burada göstərilir ki, ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə edilə bilməz. Məsələn, vergi orqanları qeyri-qanuni yoxlama nəticəsində əldə olunmuş faktlardan (yoxlama aktının nəticələrindən) məhkəmədə sübut kimi istifadə edə bilməzlər.

Bunu da bilmək lazımdır ki, mülki-prosessual prosesin ümumi qaydasına görə, əgər Siz məhkəmədə nəyisə iddia edirsinizsə, öz iddianızı sübut etməlisiniz. Lakin əgər Siz dövlət orqanlarının aktlarını məhkəmədə mübahisə edirsinizsə, Siz dövlət orqanlarının qanunu pozduğunu sübut etməli deyilsiniz. Əksinə, onlar sübut etməlidirlər ki, heç bir qanun pozuntusuna yol verməmişlər.

Ən başlıcası isə, öz tələbini düzgün ifadə etməkdir. Məhkəmədən nə xahiş etdiyinizi iddia ərizəsində dəqiq göstərin. Məsələn, «Aktı ləğv etməyinizi xahiş edirəm», «Artıq tutulmuş vergilərin qaytarılmasını xahiş edirəm», «Əmrin etibarsız hesab olunmasını xahiş edirəm» və s. Əgər Siz müəssisə və ya fərdi sahibkarla mübahisə edirsinizsə, öz tələbinizi dəqiq göstərin: «Müqavilənin etibarsız hesab edilməsini xahiş edirəm», «Borc məbləğinin qaytarılmasını xahiş edirəm», «Dəbbə pulunun tutulmasını xahiş edirəm» və s.

## Məhkəməyə kim getməlidir

İqtisadi məhkəməyə verilmiş iddia ərizəsini ya müəssisənin rəhbəri, ya da ki, onun nümayəndəsi imzalamalıdır.

Müəssisənin rəhbəri məhkəmə prosesində şəxsən iştirak edə bilər. Müəssisənin rəhbərinin səlahiyyətləri onun xidməti vəzifəsini təsdiq edən sənədin (rəhbərin təyin olunması haqqında qərarın, təsisçilərin ümumi yığıncağının protokolundan çıxarışın və s.), lazım gəldikdə isə, müəssisənin təsis sənədlərinin (nizamnamənin, əsasnamənin, təsis müqaviləsinin) məhkəməyə təqdim olunması yolu ilə müəyyənləşdirilir.

Müəssisənin rəhbəri iqtisadi məhkəmədə müəssisəni təmsil etməyə istənilən şəxsə həvalə edə bilər. Belə nümayəndə təmsil etdeyi müəssisənin işçisi olmalıdır. Nümayəndə kimi kənar





şəxs qismində yalnız vəkil çıxış edə bilər.

Fiziki şəxslər tərəfindən verilmiş etibarnamələr notariat qaydasında, yaxud etibar edənin oxuduğu və ya işlədiyi hüquqi şəxsin rəhbərliyi, etibar edənin yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən, əhalinin sosial müdafiəsi müəssisəsi tərəfindən, etibar edənin müalicə olunduğu xəstəxana və ya digər stansionar müalicə-profilaktika müəssisəsi tərəfindən, etibarnamə hərbi qulluqçulara, hərbi hissənin işçilərinə və ya onların ailə üzvlərinə verilirsə, müvafiq hərbi hissənin komandiri tərəfindən təsdiq edilir.

Hüquqi şəxs adından etibarnamə onun rəhbərinin və ya təsis sənədlərinə əsasən buna səlahiyyəti olan digər şəxsin imzası ilə həmin hüquqi şəxsin möhürü vurulmaqla verilir.

---

*Etibarnamə № 1*

*Bakı şəhəri* *1 aprel 2018-ci il*

*A müəssisəsi Nizamnamə əsasında fəaliyyət göstərən baş direktor Əliyev Zeynal Sabir oğlunun şəxsində Məmmədov Samir Əli oğluna (şəxsiyyət vəsiqəsi № __ ____________ tərəfindən verilmişdir) A müəssisəsini Azərbaycan Respublikası 1 saylı Yerli İqtisad Məhkəməsində, qanunla iddiaçı, cavabdeh və üçüncü şəxs üçün nəzərdə tutulmuş bütün səlahiyyətlərlə təmsil etməyi etibar edir.*

*S.Ə. Məmmədova aşağıdakı xüsusi səlahiyyətlər verilir:*

- *iddia ərizəsinin imzalanması*
- *iddia tələblərindən tam və ya qismən imtina edilməsi, iddianın təmin edilməsi;*
- *məhkəmə aktından şikayət verilməsi:*
- *qət olunmuş əmlakın və ya pul məbləğinin alınması.*

*Bu etibarnamə ilə müəyyən olunmuş səlahiyyətlər üçüncü şəxsə verilə bilməz.*
*Etibarnamə 1 aprel 2018-ci il tarixdən 1 il müddətinə verilmişdir.*

A *müəssisəsi*
*VÖEN* ____________
*Bakı şəhəri, Nizami küç., 5*
*M.Y.* *Baş direktor* ________________ *Əliev Z.S.*

## Hansı sənədləri kimə təqdim etmək lazımdır

İddia ərizəsini düzgün tərtib etməklə yanaşı bütün lazımi sənədləri ona əlavə etmək də lazımdır. Əks təqdirdə məhkəmə ərizəni geri qaytara və ya baxılmamış saxlaya bilər. Ərizəyə əlavə olunmuş sənədlərin siyahısı ərizədə göstərilməlidir.

İlk növbədə məhkəmə üçün yazılı sübutlar hazırlamaq lazımdır. Yazılı sübutlara işə aidiyyəti olan istənilən məlumatları əks etdirən sənədlər aiddir. Məsələn, şikayət edilən aktın, sərəncamın surəti və s.

Məhkəməyə təqdim olunan sənədlər həmin sənədlər üçün müəyyən edilmiş tələblərə uyğun olmalıdır. Məsələn, əgər Siz məhkəməyə müqaviləni təqdim edirsinizsə, həmin müqavilədə tərəflərin imzaları və rekvizitləri öz əksini tapmalıdır.

Ərizəni tərtib etdikdən və yazılı sübutlar toplandıqdan sonra ərizənin və sənədlərin surətini cavabdehə göndərin. Bu sənədləri cavabdehə zərfin qəbul edildiyinə dair bildiriş yazılan sifarişli məktubla göndərmək lazımdır.

Ərizəni, yazılı sübutları və bu sənədlərin surətlərinin cavabdehə göndərilməsini sübut edən qəbzi iqtisad məhkəməsinin dəftərxanasına şəxsən təqdim etmək və yaxud poçtla göndərmək

olar. Lakin əvvəlcə məhkəməyə müraciət üçün dövlət rüsumunu ödəmək lazımdır. Dövlət rüsumunun ödənilməsini sübut edən qəbz olmadan məhkəmə işi baxılmaq üçün qəbul etmir.

Dövlət rüsumunun məbləği, dövlət rüsumunu ödəməkdən azad olunma halları və dövlət rüsumunun ödənilməsi qaydası «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikası Qanununda göstərilmişdir.

Əgər Siz iddiaçı kimi məhkəmədə işi udsanız, məhkəmə dövlət rüsumunu cavabdehdən Sizin xeyrinizə alacaqdır. Yox əgər Siz məhkəməyə müraciət edib işi uduzsanız, dövlət rüsumu qaytarılmayacaqdır.

### Sübutlar

Tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını məhkəmə müəyyən edərkən qanunlarda müəyyən olunmuş qaydada əldə etdiyi məlumatlar məhkəmə praktikasında sübutlar hesab olunur.

inzibati-iqtisad məhkəməsi mübahisəyə baxarkən tərəflərin məhkəməyə təqdim etdikləri sübutları qiymətləndirməlidir. Tərəflər baxılan işin halları barədə öz məlumatlarını məhkəməyə təqdim edərək mübahisənin həll olunması üçün əsas olan bu halları sübut etməlidirlər.

Bu məlumatlar yazılı və maddi sübutlarla, ekspert rəyi ilə, şahidlərin ifadələri ilə, işdə iştirak edən şəxslərin izahatları ilə müəyyən olunur.

Məhkəmədə işə baxılarkən müxtəlif faktiki məlumatlardan sübut kimi istifadə oluna bilər. Yalnız qanunun pozulması yolu ilə əldə olunmuş sübutlardan məhkəmədə istifadəyə yol verilmir.

### Sübut etmək vəzifəsi

Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Dövlət orqanlarının, icra və s. orqanların aktlarının etibarsız hesab edilməsi barədə mübahisələrə baxıldıqda həmin aktların qəbul edilməsi üçün əsas olmuş halları sübut etmək vəzifəsi bu aktı qəbul etmiş orqanın üzərinə düşür.

İşdə olan sübutlar əsasında işə baxmaq mümkün olmadıqda məhkəmə zəruri əlavə sübutlar təqdim etməyi tərəflərə təklif edə bilər.

### Sübutların təqdim edilməsi və tələb olunması

Sübutlar işdə iştirak edən şəxslər tərəfindən birinci instansiya məhkəməsinə təqdim edilir.

İşdə iştirak edən şəxsin işdə iştirak edən və iştirak etməyən şəxslərdən və ya orqanlardan onlarda olan zəruri sübutları müstəqil əldə etmək imkanı olmadıqda o, həmin sübutları tələb etmək barədə vəsatətlə məhkəməyə müraciət edə bilər. Vəsatətdə bu sübutlarla iş üçün əhəmiyyətli olan hansı halların müəyyən edilməsi, sübutların əlamətləri və olduğu yer göstərilməlidir. Zəruri olan hallarda məhkəmə işdə iştirak edən şəxsə sübutun əldə edilməsi üçün sənəd verə bilər. Məhkəmənin tələb etdiyi sübutu onda olan şəxs bilavasitə məhkəməyə göndərir yaxud məhkəməyə çatdırmaq üçün sorğunu təqdim edən şəxsə verir.

Sübut tələb olunan şəxsin həmin sübutu təqdim etmək imkanı olmadıqda və ya onu məhkəmənin müəyyən etdiyi vaxtda təqdim edə bilmədikdə, o, səbəblərini göstərməklə, sorğunu aldıqdan 5 gün müddətində bu barədə məhkəməyə məlumat verməlidir.

Tələb olunan sübutu təqdim etmək vəzifəsi məhkəmə tərəfindən üzürsüz hesab edilən səbəblərə görə yerinə yetirilmədikdə, sübutlar onda olan şəxs cərimə olunur.

Cərimənin qoyulması tələb olunan sübuta malik şəxsi həmin sübutu məhkəməyə təqdim etmə vəzifəsindən azad etmir.

### Sübutların olduğu və saxlanıldığı yerdə müayinə və tədqiq edilməsi





Yazılı və ya maddi sübutları məhkəməyə təqdim etmək mümkün olmadıqda və ya məhkəməyə gətirmək çətin olduqda məhkəmə onları olduğu və ya saxlandığı yerdə müayinə və tədqiq edə bilər.

Məhkəmə tərəfindən sübutların müayinəsi və tədqiqi işdə iştirak edən şəxslərə məlumat verilməklə aparılır. Onların gəlməməsi müayinə və tədqiqatın aparılmasına mane olmur.

Zəruri hallarda müayinə və tədqiqatda iştirak etmək üçün ekspertlər və şahidlər çağırıla bilər.

Sübutlar olduğu yerdə müayinə və tədqiq edildikdən sonra dərhal protokol tərtib edilir.

### Sübutların aid edilməsi və mümkünlüyü

Məhkəmə işin gedişində təqdim olunmuş ancaq d sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır.

Sübutların aidiyyəti o deməkdir ki, məhkəməyə yalnız baxılan işə bilavasitə aid olan sübutlar təqdim edilməlidir. Məhkəməyə mümkün qədər çox sübut təqdim edilməsi heç də öz mövqeyini möhkəmləndirmək demək deyildir. Lazımsız, artıq sübutlar yalnız həqiqəti aydınlaşdırmağa mane olur və məhkəmə belə sübutları qəbul etməməkdə haqlıdır.

Sübutların mümkünlüyü o deməkdir ki, qanuna və ya digər normativ hüquqi aktlara əsasən müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin halları başqa sübutlarla təsdiq oluna bilməz.

### Sübut etməkdən azad olmaq üçün əsaslar

Hamıya bəlli olan hallar və ya faktlar mübahisə edilə bilməz və onların sübuta ehtiyacı yoxdur.

Məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə müəyyən edilən və işdə iştirak edən şəxslərə aid olan hallar başqa işə baxan məhkəmə üçün məcburidir.

Bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən olunan faktlar həmin şəxslərin iştirak etdiyi başqa mülki işlərə baxıldıqda yenidən sübut edilmir.

Cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmü bu hərəkətlərin olub-olmaması və bu hərəkətlərin kim tərəfindən edilməsi məsələlərində mülki işə baxan məhkəmə və ya hakim üçün məcburidir.

### Yazılı sübutlar

Yazılı sübutlar - iş üçün əhəmiyyətli hallar barədə məlumat verən notariat qaydasında təsdiq olunmuş sənədlər, aktlar, müqavilələr, arayışlar, işgüzar yazışmalar və sair sənəd və materiallardır.

Faks, elektron və ya digər rabitə vasitəsi ilə, yaxud sair üsulla əldə edilmiş materiallar məhkəmə tərəfindən o şərtlə yazılı sübut kimi qəbul edilə bilər ki, həmin sənədlərin həqiqiliyini müəyyən etmək mümkün olsun.

Lazımi sübutların əsli və ya lazımi qaydada təsdiq olunmuş surəti təqdim edilir. Əgər baxılan işə sənədin yalnız bir hissəsi aiddirsə, belə olan halda, bu sənəddən təsdiq olunmuş çıxarış təqdim edilir.

Sənədlərin əsli qanunlara və ya digər normativ hüquqi aktlara müvafiq olaraq, işin halları ancaq bu cür sənədlərlə təsdiq edildikdə və ya məhkəmənin tələbi ilə digər zəruri hallarda təqdim edilir.

İşdə iştirak edən şəxslər tərəfindən məhkəməyə təqdim olunmuş yazılı sübutların surətləri onlarda olmayan digər işdə iştirak edən şəxslərə göndərilir (verilir).

### Sənədlərin əslinin qaytarılması

İşdə olan sənədlərin əsli, məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin sənədləri təqdim etmiş şəxslərin xahişi ilə onlara qaytarıla bilər.

Həmin şəxslər bu sənədləri tələb etməklə eyni zamanda onların lazımi qaydada təsdiq olunmuş surətlərini məhkəməyə təqdim edir və ya işdə qalan surətlərin həqiqiliyini təsdiq etməyi məhkəmədən xahiş edirlər.

Qətnamə qanuni qüvvəyə minənədək iş üzrə icraat prosesində sənədlər onları təqdim edən şəxslərə o şərtlə qaytarıla bilər ki, məhkəmə bu sənədlərin qaytarılmasının mübahisənin düzgün həllinə xələl gətirməyəcəyinə əmin olsun.

## Maddi sübutlar

Xarici görünüşünə, xüsusiyyətlərinə, olduğu yerə və digər əlamətlərinə görə iş üçün əhəmiyyətli olan halların müəyyən edilmə vasitəsi ola bilən əşyalar maddi sübutlardır.

Maddi sübutlar məhkəmədə saxlanılır.

Məhkəməyə gətirilə bilməyən maddi sübutlar olduqları yerdə saxlanılır. Onlar məhkəmə tərəfindən müayinə edilməli, müfəssəl təsvir olunmalı, möhürlənməli, zəruri hallarda foto və ya video lentə çəkilməlidir.

Maddi sübutların saxlanılması üçün xərclər bu Məcəllənin müddəalarına əsasən tərəflər arasında bölüşdürülə bilər.

Məhkəmə və sübutları saxlayan şəxs maddi sübutların dəyişməz vəziyyətdə qalması üçün tədbirlər görür.

Məhkəmə tez xarab olan maddi sübutları onların olduqları yerdə dərhal müayinə və tədqiq edir.

İşdə iştirak edən şəxslər müayinə və tədqiqatın aparıldığı yer və vaxt haqqında xəbərdar edilirlər, məlumat verilmiş işdə iştirak edən şəxslərin gəlməməsi maddi sübutların müayinəsinə və tədqiqinə mane olmur.

Maddi sübutların müayinəsi və tədqiqinə dair məlumatlar protokolda yazılır.

Maddi sübutlar məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra alındığı şəxslərə qaytarılır və ya məhkəmənin həmin şeylər üzərində hüququnu təsdiq etdiyi şəxslərə verilir, yaxud məhkəmənin müəyyən etdiyi qaydada reallaşdırılır.

Qanunla fiziki şəxslərin sahibliyində ola bilməyən predmetlər müvafiq orqanlara verilir.

Maddi sübutlar məhkəmə tərəfindən müayinə və tədqiq edildikdən sonra sübutu vermiş şəxslər onun qaytarılması barədə vəsatət versələr və bu cür vəsatətin təmin edilməsi işə baxılmasına zərər vurmazsa, iş qurtarana qədər sübutlar həmin şəxslərə qaytarıla bilər.

Maddi sübutlar üzərində sərəncam verilməsi məsələləri məhkəmənin qətnaməsində və ya qərardadında göstərilməlidir.

## Səs və video yazılar

Elektron və digər daşıyıcılar üzərində səs və ya video yazılar təqdim edən və ya onların tələb olunması barədə vəsatət qaldıran şəxslər həmin yazıların nə vaxt, kim tərəfindən və hansı şəraitdə yazılmasını göstərməyə borcludur.

Qanunla icazə verilən hallardan başqa, gizli yolla əldə edilmiş səs və ya video yazılardan sübut kimi istifadə oluna bilməz.

## Ekspertiza

İşə baxılarkən xüsusi bilik tələb olunan sualları izah etmək üçün məhkəmə işdə iştirak edən şəxsin vəsatəti və ya öz təşəbbüsü ilə ekspertiza təyin edə bilər.

İşdə iştirak edən şəxslər qarşılıqlı razılığa əsasən konkret səlahiyyətli şəxsin ekspert təyin edilməsini məhkəmədən xahiş edə bilərlər.

İşdə iştirak edən şəxslər ekspertiza keçirilən zaman baxılmalı olan sualları məhkəməyə təqdim etməyə haqlıdırlar.





Ekspert rəyinin alınmasına dair sualların yekun məzmununu məhkəmə müəyyən edir. İşdə iştirak edən şəxslərin təqdim etdiyi sualların rədd edilməsini məhkəmə əsaslandırmağa borcludur.

Tərəf ekspertizanın keçirilməsində iştirak etməkdən imtina edirsə və ya onun keçirilməsinə mane olursa (ekspertizaya gəlmir, zəruri tədqiqat predmetlərini ekspertə təqdim etmir, ekspertizanın aparılması üçün tələb olunan xərcləri ödəmir və s.) və işin hallarına görə bu tərəfin iştirakı olmadan ekspertizanı keçirmək mümkün deyilsə, məhkəmə hansı tərəfin iştirak etməkdən imtina etməsindən, habelə bunun onun üçün hansı əhəmiyyət kəsb etməsindən asılı olaraq, ekspertiza təyin edilən faktı, onun hüquqi nəticələrini əsaslandırmaqla təsdiq olunmuş və yaxud rədd edilmiş hesab edə bilər.

Ekspertiza təyin edilməsi haqqında məhkəmə qərardad qəbul edir.

Ekspertiza təyin etmək barədə qərardadda məhkəmə tərəfindən aşağıdakılar göstərilməlidir: məhkəmənin adı; ekspertizanın təyin edilməsi vaxtı; baxılan iş üzrə tərəflərin adı; ekspertizanın adı; təsdiq edilməsi və ya rədd edilməsi üçün ekspertiza keçirilən faktlar; ekspertiza qarşısında qoyulan suallar; ekspertin soyadı, adı və atasının adı və ya ekspertizanın keçirilməsi tapşırılan idarənin adı; ekspertə göndərilən materiallar; ekspertizanın keçirilməsi və rəyin verilməsi müddəti.

Qərardadda qəsdən rəy verməyə görə cinayət məsuliyyəti daşıması haqqında ekspertin və ya işçisi ekspertiza keçirən ekspert idarəsi rəhbərinin məhkəmə tərəfindən xəbərdar edilməsi də göstərilməlidir.

Ekspertiza çəkişmə prinsipinə işdə iştirak edən şəxslərin hüquqlarına riayət olunmaqla keçirilir. Məhkəmə ekspertizanın keçirilməsinin gedişi haqqında məlumat əldə etməyə haqlıdır.

Ekspertiza ekspert idarələrinin işçiləri və ya məhkəmə tərəfindən tapşırılan digər mütəxəssislər tərəfindən keçirilir? Ekspertizanın keçirilməsi bir neçə ekspertə tapşırıla bilər.

Ekspertiza tədqiqatın xarakterindən asılı olaraq zəruridirsə və ya tədqiqat aparmaq üçün materialları məhkəmə iclasına gətirmək mümkün deyilsə, habelə çətinlik törədirsə, məhkəmənin iclasında və ya məhkəmə iclasından kənar keçirilə bilər. İşdə iştirak edən şəxslərin məhkəmə iclasından kənar ekspertizanın keçirilməsində iştirakının ekspertlərin normal işinə maneçilik törədə bilməsi halları istisna olmaqla, onlar ekspertizanın keçirilməsində iştirak edə bilərlər.

Ekspertizanın keçirilməsi iki və daha artıq ekspertə tapşırılarsa, onlar öz aralarında məsləhətləşə bilərlər. Ekspertlər ümumi nəticəyə gəldikdə, onlar bir ümumi rəy verirlər. Başqa ekspertlərlə razılaşmayan ekspert ayrıca rəy verir.

Ekspertiza ekspert idarələrində keçirildikdə rəy üçün məsuliyyəti həmin idarənin rəhbəri tərəfindən ekspertiza keçirilməsi tapşırılan konkret ekspert və ekspertlər daşıyırlar.

Ekspert yazılı formada rəy verir.

Ekspert rəyində aparılmış tədqiqatların müfəssəl təsviri, onlara əsasən çıxarılmış nəticələr və məhkəmə tərəfindən qoyulmuş suallara əsaslandırılmış cavablar verilməlidir. Əgər ekspert ekspertiza apararkən iş üçün əhəmiyyəti olan, haqqında sual qoyulmayan halları müəyyən edirsə, o, bu hallar barədə mülahizələrini öz rəyinə daxil etməyə haqlıdır.

Ekspertin rəyi məhkəmədə tədqiq olunur və digər sübutlarla yanaşı qiymətləndirilir.

Ekspertin rəyi kifayət qədər aydın və ya tam olmadıqda məhkəmə əlavə ekspertiza təyin edə bilər və onun keçirilməsini həmin və ya başqa ekspertə tapşıra bilər.

Məhkəmə, əsassızlığına görə ekspertin rəyi ilə razılaşmadıqda, habelə bir neçə ekspertin rəyləri arasında ziddiyyətlər olduqda, ekspertiza aparılmasını başqa ekspertə və ya ekspertlərə tapşırmaqla, təkrar ekspertiza təyin edə bilər.

Ekspertin rəyi məhkəmə üçün məcburi deyildir və Mülki- prosessual Məcəliə ilə müəy-

yən edilmiş qaydalar üzrə məhkəmələr tərəfindən qiymətləndirilir.

Ekspertin rəyi ilə məhkəmənin razılaşmaması iş üzrə qətnamədə və ya qərardadda əsaslandırılmalıdır.

**Şahid ifadələri**

Şahid ona məlum olan məlumatları və halları məhkəməyə şifahi bildirir.

Məhkəmənin tələbi ilə şahid öz ifadəsini yazılı tərtib edə bilər.

Alınma mənbəyini göstərə bilmədən şahid tərəfindən verilən məlumatlar sübut hesab edilmir.

Aşağıdakılar şahid qismində dindirilə bilməzlər:

- azyaşlı olduğuna görə, fiziki və ya psixi qüsurları üzündən faktları düzgün qavraya bilməyən və ya faktlar barədə düzgün ifadə verə bilməyən şəxslər;
- vəzifələrini icra etməklə əlaqədar olaraq onlara məlum olan hallar barədə - mülki işlər üzrə nümayəndələr və cinayət işləri üzrə müdafiəçilər;
- ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar ona məlum olan məsələlər üzrə - hakim;
- dini etiqad ilə əlaqədar olaraq onlara məlum olan məsələlər üzrə - din xadimləri;
- peşə borcunu həyata keçirməklə əlaqədar onlara məlum olan hallar barədə - vəkillər.
- Aşağıdakılar məhkəmədə ifadə verməkdən imtina edə bilərlər;
- şəxs özünə qarşı;
- ər-arvad bir-birinə qarşı, uşaqlar valideynlərinə, valideynlər uşaqlarına qarşı;
- qardaş və bacılar bir-birinə qarşı, nənə-baba nəvələrinə, nəvələr baba və nənələrinə qarşı;
- vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar olaraq onlara məlum olan məlumatlar üzrə Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları.

Şahidin çağırılması barədə vəsatət qaldıran şəxs şahidin soyadını, adını, atasının adını və yaşadığı yeri göstərməyə borcludur.

Şahid xəstəlik, qocalıq, əlillik və ya sair üzürlü səbəblər nəticəsində məhkəmənin çağırışı üzrə gələ bilmədikdə, olduğu yerdə məhkəmə tərəfindən dindirilə bilər.

Şahid çağırılması ilə əlaqədar çəkdiyi xərcləri və itirdiyi vaxta görə pul əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir.

**İşdə iştirak edən şəxslərin izahatları**

İşdə iştirak edən şəxslərin iş üçün əhəmiyyətli olan və onlara məlum olan faktlar barədə izahatları iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir.

Digər tərəf sübutları özündə saxlayıb məhkəmənin tələbi ilə təqdim etmədikdə, məhkəmə tərəflərin bildirdiyi məlumatlar əsasında iş üçün əhəmiyyətli olan halları müəyyən olunmuş hesab edə bilər.

Tərəfin tələb və etirazlarının əsaslandırdığı faktları digər tərəfin etiraf etməsi əks tərəfi gələcəkdə bu faktları sübut etmə vəzifəsindən azad edir. Faktın etiraf olunması məhkəmə iclasının protokoluna yazılır və bu barədə etiraf edən tərəf protokola imza edir. Faktın etirafı yazılı ərizədə ifadə olunursa, həmin ərizə işə tikilir.

Məhkəmə faktın etiraf olunmasının işin həqiqi hallarının gizlədilməsi məqsədi ilə və yaxud aldatma, zor, hədə və ya yanılma təsiri nəticəsində baş verməsinə şübhə edirsə, etirafı qəbul etmir. Bu halda həmin faktlar ümumi qaydada sübut olunmalıdır.